## Elektron qaydada məhkəməyə müraciət etmək olarmı?

Hazırda məhkəmələrin 61 faizində "Elektron məhkəmə" sistemi tətbiq olunur. Burada məhkəmələrin vahid internet portalı, elektron şəxsi kabinet, məhkəmə qərarlarının vahid bazası və elektron icra sistemi yaradılıb və hər kəs bu məlumatlardan faydalana bilər.

Məhkəmə və proses iştirakçıları tərəfindən ərizə, şikayət və digər sənədlərin elektron formada tərtib edilməsi, göndərilməsi, qəbulu, sənədlərin elektron qeydiyyatı və elektron dövriyyəsi "Elektron məhkəmə" informasiya sistemindən istifadə qaydalarına uyğun olaraq həyata keçirilir. "Elektron məhkəmə" informasiya sistemində elektron sənəd dövriyyəsi üçün gücləndirilmiş elektron imzadan və sertifikatlaşdırılmış elektron imza vasitələrindən istifadə edilir.

Qanunla kommersiya mübahisələri (sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar olan mübahisələr) üzrə məhkəmə icraatı, o cümlədən ərizə, şikayət və digər sənədlərin göndərilməsi, qəbulu, habelə məhkəmə sənədlərinin məhkəməyə və proses iştirakçılarına çatdırılması "Elektron məhkəmə" informasiya sistemində yaradılan elektron kabinet vasitəsilə həyata keçirilir.

Mülki işlər üzrə məhkəmə icratının isə, "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə həyata keçirilməsi hazırda məcburi xarakter daşımır. Mülki işlər üzrə məhkəmə icratının "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə həyata keçirilməsi "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə həyata keçirilə bilər.

Hazırda bu cür mülki işlərə baxan ümumi məhkəmələrdə "Elektron məhkəmə" informasiya sistemi tətbiq olunmur. Lakin gələcəkdə həmin məhkəmələrdə də "Elektron məhkəmə" informasiya sisteminin təşkili nəzərdə tutulub.

"Elektron imza və elektron sənəd haqqında" Qanununda nəzərdə tutulmuş qaydada elektron sənəd formasında tərtib edilmiş iş materialları kağız daşıyıcıda olan materiallara bərabər tutulur və onlarla eyni hüquqi qüvvəyə malikdir.

Elektron qaydada məhkəməyə e-mehkeme.gov.az internet səhifəsinə daxil olmaqla müraciət edilir.

Buklet milli qanunvericilik əsasında hazırlanıb.

Buklet "Əhalinin həssas və aztəminatlı təbəqəsinə ödənişsiz hüquq yardımı" layihəsi çərçivəsində hazırlanıb və çap olunub.

Tiraj: 2500 ədəd. Format A4
"Print Work" çap evində çap edilib.






# "Elektron hökumət - Elektron məhkəmələr"

*- Bu barədə nə bilirik?*



## "Elektron Hökumət" nədir?

"Elektron hökumət" daha yaxşı hökumət fəaliyyətinə nail olmaq üçün informasiya texnologiyaları, xüsusilə internetdən istifadə edilməklə dövlət qurumları tərəfindən ölkə ərazisində yaşayan və fəaliyyət göstərən bütün şəxslərə müxtəlif xitmətlərin göstərilməsini təmin edən bir vasitədir.

Elektron hökumətin məqsədi vətəndaşların və digər şəxslərin xidmətlərdən daha asan və rahat bir şəkildə istifadə etməsini təmin etmək, xidmətlərdən istifadə olunarkən xərclərin minimuma endirilməsindən ibarətdir. Elektron xidmət həmçinin, məlumatların birbaşa və sürətli əldə edilməsinə nail olmaq, rüşvətxorluq və korrupsiyanı aradan qaldırmaq, xidmət keyfiyyətini daha da yaxşılaşdırmaq məqsədi daşıyır.

Hazırda e-gov.az elektron hökumət portalında 452 elektron xidmət vardır və 135 dövlət qurumu tərəfindən elektron qaydada xidmət göstərilir. Buraya nazirliklər, dövlət komitələri, dövlət xidmətləri, agentlik, idarə, mərkəz və sair dövlət qurumları daxildir.

## "Elelktron hökumət"in vətəndaşlar üçün əhəmiyyəti nədir?

"Elelktron hökumət" vətəndaşlar üçün dövlət idarəçiliyində fəal iştirak etmək, effektiv, şəffaf, nəzarət oluna bilən dövlət idarəetməsinin bərqərar olması, dövlət idarəçiliyində müasir texnologiyaların tətbiqini genişləndirməklə həyata keçirilən fəaliyyətin səviyyəsinin yüksəldilməsi və onlardan istifadənin sadələşdirilməsi imkanı yaradır.

"Elektron hökumət" virtual məkanın, müasir texnologiyaların imkanlarından, dövlət orqanlarında informasiyalaşdırmanın yüksək səviyyəsindən istifadə edərək ölkə vətəndaşlarına göstərilən xidmətlərin keyfiyyətcə yeni formada təqdim edilməsinə xidmət edir.

Bunlardan başqa dövlət orqanları ilə təmaslarının sadələşdirilməsi, bu təmasların daha münasib və çevik formada həyata keçirilməsi, informasiya tələbatının dolğun ödənilməsində rahatlıq, fiziki məhdudiyyətli insanların dövlət xidmətlərinə çıxış imkanı əldə etməsi də "Elektron hökumət"in vətəndaşlar üçün faydalı tərəfləridir.

## "Elektron hökumət" portalından necə istifadə etmək olar?

"Elektron hökumət" portalında qeydiyyatdan keçməklə dövlət qurumları tərəfindən təklif olunan müxtəlif elektron xidmətlərdən yararlanmaq mümkündür.

"Elektron hökumət" portalına elektron imza, asan imza və elektron hökumət sistemi tərəfindən vətəndaşa verilmiş istifadəçi adı və şifrə ilə daxil olmaq olar.

Elektron imza elektron sənədi hazırlayan şəxsin sənədi təsdiqləyərək digər tərəfə göndərməsi, həmçinin, elektron imza vasitəsi tələb edən elektron xidmətlərdən istifadə etmək üçündür. Elektron imza vasitəsilə tək sənədi deyil, həmçinin şəkil, audio, video fayl, və ya istənilən formatda olan faylları imzalamaq mümkündür.

Asan İmza (Mobil imza) elektron xidmətlərə daxil olan və rəqəmsal imzalar edən zaman kimliyinizi təsdiqləmək üçün nəzərdə tutulmuşdur. Asan İmza (Mobil imza) bütün mövcud elektron xidmətlərdən istifadəni mümkün edir. Asan İmza (Mobil imza) əslində elektron mühitdə sertifikatlara bağlı olan mobil telefon SİM-kartıdır.

"Elektron hökumət"lə bağlı bütün xidmətləri e-gov.az elektron hökumət portalından əldə etmək olar. Burada elektron arayışlar, elektron ödənişlər, bank və sığorta xidmətləri, yerli icra hakimiyyətlərinin elektron xidmətləri, elektron müraciətlər və s. kimi elektron xidmət bölmələri yerləşdirilib.

## Hansı elektron xidmətlərdən qeydiyyatdan keçmədən faydalanmaq olar?

Dövlət qurumları üzrə 125 elektron xidmətdən qeydiyyatdan keçmədən faydalanmaq olar və buraya aşağıdakı elektron xidmətlər də daxildir:

- Ünvanlı sosial yardımla bağlı müraciətin edilməsi;
- Tibbi-Sosial Ekspert Komissiyasında sonuncu müayinəyə dair məlumatın verilməsi;
- Sosial müavinətlərin və təqaüdlərin hesablanması;
- Yol hərəkəti qaydalarının pozuntusu ilə əlaqədar tətbiq edilən cərimələr və cərimə balları barədə məlumatlar;
- Borclunun ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması barədə məlumatın verilməsi;
- Atalığı müəyyən edilmək üçün elektron müraciət;
- Nikahın pozulması üçün elektron müraciət;
- Doğumun qeydiyyatı üçün elektron müraciət;
- Tibb müəssisələri barədə məlumatların verilməsi
- Dərman vasitələri haqqında məlumatın verilməsi;
- Kommunal xidmətlər üzrə borcların elektron qaydada ödənilməsi;
- Ombudsman aparatına elektron müraciət;
- Vergi borcu barədə məlumatın verilməsi;
- Poçt ünvanlarına görə küçələrin axtarışı;
- Kommersiya qurumlarının dövlət reyestri məlumatlarının verilməsi.